# PEŞƏNİN GÜCLƏNDİRİLMƏSİ ÜÇÜN ƏMƏKDAŞLIQ HAQQINDA ANLAŞMA MEMORANDUMU

**Bu Anlaşma Memorandumu (AM) 2023-cü il 1 dekabr tarixində:**
1. Bakı şəhəri, S.Y.Bakuvi küçəsi 35, AZ1072 ünvanında yerləşən Azərbaycan Respublikasının Auditorlar Palatası (bundan sonra ARAP adlandırılacaq)
və
2. Karaçi şəhəri, "İmtiyazlı Mühasiblər" prospekti 75600 ünvanında yerləşən Pakistanın İmtiyazlı Mühasiblər İnstitutu (bundan sonra ICAP adlandırılacaq) **arasında imzalanmışdır.**
Bu Anlaşma Memorandumunun məqsədləri üçün "ARAP" və "ICAP" ayrı-ayrılıqda Tərəf, birlikdə isə Tərəflər adlandırılacaq.

**1. Əməkdaşlıq**
1.1. Tərəflər aralarında qurulmuş yaxşı işgüzar münasibətləri alqışlayır və onları inkişaf etdirməyə razılıqlarını bildirirlər.
1.2. Tərəflər birgə işləməklə mühasib və audit peşəsinin inkişafına və təşviqinə öz sadiqliklərini təsdiq edirlər.
1.3. Bundan əlavə Tərəflər gələcəkdə yarana biləcək digər qarşılıqlı maraq doğuran məsələlər üzrə əməkdaşlıq etmək niyyətlərini təsdiq edirlər.

**2. Əməkdaşlığın əhatə dairəsi**
2.1. Tərəflər həm ölkə daxilində, həm də beynəlxalq miqyasda mühasib və audit peşəsi ilə bağlı fikirlərini bölüşməyə razılıqlarını bildirirlər.
2.2. Tərəflər aşağıdakı sahələri əhatə edən və qarşılıqlı maraq doğuran məsələlər üzrə birgə işləmək imkanlarını araşdıracaqlar:
• Hər iki Tərəfin müvafiq ixtisaslı üzvləri üçün tanınma tədbirlərinin və üzvolma yollarının işlənib hazırlanması; və,
• Peşənin xeyri naminə texniki və ya digər məlumatlarla bağlı bilik mübadiləsi.
2.3. Yuxarıda qeyd olunan müzakirə və müraciətlərin hər hansı birindən irəli gələn təfərrüatlı razılaşmalar və maliyyə öhdəlikləri Tərəflər arasında yazılı şəkildə əlavə sazişlərdə əks etdirilir.
2.4. Tərəflər bu əməkdaşlığı elan edərkən və ya marketinq məqsədləri ilə reklam materialları üçün digər tərəfin əvvəlcədən yazılı razılığını almaq və müvafiq brendə dair qaydalara riayət etmək şərti ilə digərinin adından və ya loqotipindən istifadə edə bilərlər.

**3. Memorandumun yerinə yetirilməsi**
3.1. Tərəflər bu Anlaşma Memorandumundan irəli gələn məsələlərin yerinə yetirilməsi üçün birgə əlaqələndirmə qrupunun yaradılması barədə razılıqlarını bildirilər.

**4. Müddət və Xitamvermə**
4.1. Bu AM-nun müddəti üç (3) ili əhatə edir və bu AM-nun imzalandığı tarixdən qüvvəyə minir.
4.2. Tərəflərdən hər hansı biri digər Tərəfə bu AM-nu ləğv etmək niyyəti barədə ən azı otuz gün əvvəl yazılı bildiriş göndərməklə bu AM-na xitam verilə bilər.

**5. Düzəliş və uzadılma**
5.1. Bu AM hər iki tərəfin yazılı şəkildə qarşılıqlı razılığı əsasında düzəliş edilə və ya uzadıla bilər.

**6. Məxfilik**

6.1 Digər tərəfin razılığı olmadan və ya qanunla yaxud hər hansı digər müvafiq tənzimləyici orqan tərəfindən tələb olunmadığı təqdirdə Tərəflər açıqlanmış və ya əldə edilmiş və ictimaiyyətə açıqlanmayan və ya artıq məlum olan hər hansı məlumatı məxfi saxlamağa və belə məlumatları üçüncü şəxslərə açıqlamamağa razılaşırlar.

**7. Digər müddəalar**

7.1. Hər bir Tərəf bu AM-nun hazırlanması, icrası və ondan irəli gələn məsələlərin həyata keçirilməsi ilə bağlı çəkilmiş xərcləri və məsrəfləri (vəkillərin xərcləri daxil olmaqla) öz üzərinə götürür.

7.2. Yazılı şəkildə başqa hal nəzərdə tutulmadığı təqdirdə, hər iki Tərəf öz hüquqlarının, öhdəliklərinin, maraqlarının və ya mənfəətlərinin hamısını və ya bir hissəsini hər hansı üçüncü tərəfə ötürə və ya verə bilməz.

**8. Müstəsnalıq məhdudiyyətlərinin olmaması**

8.1. Bu AM heç bir Tərəfi hər hansı müstəsna məhdudiyyətlərə məruz qoymur və xüsusilə Tərəflər digər Tərəflə əvvəlcədən məsləhətləşmədən və ya razılaşdırmadan hər hansı digər tərəf və ya tərəflərlə oxşar razılaşmalar, sazişlər və ya müqavilələr bağlamaq hüquqlarını özündə saxlayır.

**9. Mübahisələrin həlli və arbitraj**

9.1. Tərəflər razılaşırlar ki, bu AM-dan irəli gələn bütün mübahisələr danışıqlar və müzakirələr vasitəsi ilə və sülh yolu ilə nizamlanmaqla həll oluna bilər.

**10. İmzalayanlar**

2023-cü il 1 dekabr tarixində Tərəflərin hər birinin səlahiyyətli nümayəndəsi tərəfindən imzalanmışdır.

| | |
|---|---|
| ________________________________<br>**Cənab Əli Lətif**<br>Pakistanın İmtiyazlı Mühasiblər İnstitutunun (ICAP) prezidenti | ________________________________<br>**Cənab Vahid Novruzov**<br>Azərbaycan Respublikasının Auditorlar Palatasının (ARAP) sədri |